Elmi Xəbərlər Jurnalı *Nömrə 3, 2024 317-323*

DOI:10.30546/gdu.3.2024

**UOT:821. 111(73)**

# KURT VONNEQUTUN "TİTANIN SİRENLƏRİ" ƏSƏRİNDƏ PLANETLƏR

***Əhmədova Lətifə Kərəm qızı***
***ADPU-nun Ağcabədi filialı***
***letife.ahmedova64@mail.ru***

**Xülasə:** *İkinci dünya müharibəsindən sonra amerika ədəbiyyatında yeni forma və inkişaf metodları formalaşıb, həmçinin ənənəvi mövzular yeni ifadələrlə əvəz olunmuşdur. K.Voennqut, ABŞ XX əsr ədəbiyyatının məhşur yazıçılarından biri olub, ədəbiyyat janrlarında yeni forma və prinsiplər yaratmağa çalışıbdır. Onun əsərləri humanistliyi ilə fərqlənib. İkinci dünya müharibəsi, ABŞ-ın siyasi və ictimai həyatı onun əsərlərində sadə dil ilə ifadə olunub. "Titanın sirenləri" romanı yazıçının həyatında böyük iz qoyub. Romanın əsas mövzusu başqa planetlər, yer sakinlərinin orada həyat və taleləri. Əsərin qəhrəmanlarıolan Malaçı Konstant, Uinston Rumford və Beatris Mars Merkuriy planetlərinə səyahət edirlər. Düzgün deyil ki, bu romana sırf fantastik əsər kimi baxaq. Yaddaşlarını silmakdən başqa, Mars planeti isə, pislik və müharibələr olmayan bir planet kimi təsvir olunub.*

**Açar sözlər:** Kurt Vonnequt, "Titanın sirenləri", İkinci Dünya müharibəsi, Mars, Merkuri

**Ключевые слова:** Курт Воннегут, "Сирены Титана", Вторая Мировая Война, Марс, Меркурий

**Key words:** Kurt Vonnegut, "Sirens of Titan", World War II, Mars, Mercury

İkinci Dünya müharibəsindən sonra Amerika ədəbiyyatında yeni forma və təhkiyə üsulları axtarışı, ənənəvi məzmun anlayışına fərqli yanaşma meylləri meydana çıxmışdır. Müasir ədəbiyyatın inkişaf yollarından danışarkən N.A.Anastasev yazır: "Layiqli səviyyədə qalmaq üçün ədəbiyyat özü öz gələcəyini düşünməli, inkişafının ziddiyyətlərini dərk etməli idi" [2, s.142].

XX əsr ABŞ ədəbiyyatının özünəməxsus yaradıcılıq prinsipləri ilə seçilən yazıçılarından K.Vonnequt da bədii yaradıcılıqda yeni tendensiyaların formalaşmasına cəhd edirdi. "Vonnequtu realist roman poetikasının inkişaf perspektivləri maraqlandırır. Vonnequt, məsələn, Bartdan heç də az eksperimentçi deyildi. Bununla belə, onun hekayə anlatma üsulu son dərəcə fərdidir... "Fakt" və "fantastika" arasındakı mürəkkəb əlaqə Vonnequtun bədii sistemində mühüm yer tutur. Bu baxımdan avtobioqrafik element xüsusi funksiya yerinə yetirir" [5, s.124].

K.Vonnequtun bütün əsərləri üçün insana qarşı dərin humanist münasibət xarakterikdir. Görkəmli yazıçı sevgi və qarşılıqlı yardımlaşma ilə insanların daim biri-birilərini dəstəkləməli olduqlarını düşünür və əsərlərində sözügedən cəhəti daim oxuculara xatırlatmağı bir ədəbi missiyaya çevirir.

ABŞ-ın siyasi-ictimai, cəmiyyət həyatı, dünyaya münasibəti, İkinci Dünya müharibəsi və onun fəsadları kimi mühüm və qlobal mövzular K.Vonnequtun romanlarında sadə tərzdə ifadə olunmuşdur. "Vonnequt Amerika cəmiyyətini təsvir etmək üçün unikal bir üsul seçir. O, gündəlik həyatın adi hadisələrini mücərrədləşdirir, yaşadığı mühitin xarakterik cəhətini seçir, onu kontekstdən ayırır və bununla da tipik olanı kəskinləşdirir" [5, s.138]. N.A.Anastasevin də yazdığı kimi, "satirik yazıçının gündəlik həyatın təfərrüatlarını bərpa etməyə ehtiyacı yoxdur, o, zamanın xarakterik xüsusiyyətlərini götürür, onu kəskin şəkildə qabardaraq ümumiləşdirilmiş obraz yaradır" [2, s.144].

K.Vonnequtun "Titanın sirenləri" (1959) romanı yazıçının bədii irsində önəmli yer tutmaqla yanaşı, spesipik forma və məzmun cəhətləri ilə də seçilir. Roman elmi fantastik və

DOI:10.30546/gdu.3.2024

satirik-ironik üslubda yazılmışdır. Əsər İkinci Dünya müharibəsi və ondan sonrakı böhran dönəminin təbəddülatlarını ifadə edir. Romanda önəmli məsələlərdən biri də digər planetlər, yer qəhrəmanlarının həmin planetlərdəki həyatı və taleyidir.

K.Vonnequt Malaki Konstant, Uinston Naylz Rumfoord və Beatriçe adlı qəhrəmanlarının vasitəsi ilə Mars və Merkuriyə səyahət edir. Əsərdən məlum olur ki, milyonçu olan tədqiqatçı Uinston Naylz Rumfoord kosmik gəmisi ilə xronosinklastik konusun mərkəzinə düşərək saf enerjiyə çevrilir. Keçmişi və gələcəyi görə bilən Uinston Naylz Rumfoord doqquz ildən bəri əlli doquz gündən bir reallaşır və yer kürəsinə gəlir. Romanda Malaki Konstant və Beatriçenin Marsa aparılması yazıçının məqsəd və fikirlərinin ifadəsinə xidmət etməkdədir.

İflasa uğrayan və hər tərəfdən gələcək təqsirləndirmələr qarşısında təlaşa düşən Malaki Konstantın atasının sadiq işçisi Ransom K.Fernin Noel Konstantın oğlunun çıxılmaz vəziyyətə düşdüyü zaman oxumaq üçün ona verdiyi məktubu oxuyur. Uğura aparan yola hansı cəhdlə başladığından bəhs edən Noel Konstant oğluna qarşısına çıxacaq şansı dəyərləndirməyi tövsiyə edir və şansa mühüm önəm verir: "İndi mənim üçün bir ətrafına bax, oğlum. Əgər sıfırdasansa və kimsə çılğın bir təkliflə qarşına çıxırsa, məndən sənə tövsiyyə, qəbul et. Öyrənməyə həvəs edərsənsə, bəlkə həqiqətən də bir şey öyrənərsən. Mənim həyatda öyrəndiyim tək şey şansın kimlərə gülüb, kimlərə gülmədiyini və bunun nədən belə olduğunu bir Harvard Biznes Məktəbinin məzununun belə tapa bilmədiyi oldu" [1, s.90].

Hadisələri içi-içə təqdim edən K.Vonnequt Uinston Naylz Rumfoordun Malaki Konstant üçün gələcəkdən xəbər verməsi və onun kosmosa səfərinin mərhələlərini göstərməsi, Noel Konstantın uğurlu iş fəaliyyətinin təsviri və oğlunun iflası, atasının Malaki Konstanta şansı dəyərləndirmək tövsiyyəsi eyni bir müstəvidə birləşərək qəhrəmanın həyatını Marsa transfer edir. Bu hadisələrin hər biri müxtəlif problemləri ifadə edir. "Yazıçının əsərləri çox mövzulu olub, onların hər biri bir çox problemi cəmləşdirir, parçalanmış mətn strukturundan istifadə edir və buna uyğun olaraq sosial mexanizmlərin hərəkətlərini və faktiki mövcud səbəb-nəticə əlaqələrini nümayiş etdirməyin yeni üsullarından istifadə olunur" [3, s.52].

Romanın daha əvvəlki səhifələrində Uinston Naylz Rumfoord Malaki Konstant və Beatriçenin Marsa necə uçacaqlarını təsvir edir. "Balina" adlı kosmik gəminin adı Uinston Naylz Rumfoordun şərəfinə Rumfoord olaraq dəyişdirilmişdir. Yazıçı təsvir edir ki, orqan yaradıcı meymunlarla dolu gəmi kosmosa uçurulurkən mərasimdə iştirak edən Malaki və Beatriçe simvolik bir təftiş üçün gəmiyə minəcək, yanlışlıqla düyməyə basıldığında da meymunlarla birlikdə kosmosa uçaçaqlar. Yazıçının məqsədi insanların yanlışlarından doğan fəlakətlərə diqqət çəkməkdən ibarətdir.

Bu hadisə baş verdiyi zaman Malaki Konstant atasının çalışdığı otaqda oturub onun məktubunu oxuyur və gələcək şansı düşünürsə, Beatriçe isə Uinston Naylz Rumfoord ilə birlikdə həmin hadisəni televizordan seyr edir. Üç min kilometr uzaqda olan qadın artıq kosmosa göndərilə bilməyəcəyi sevincini yaşayır. K.Vonnequtun fantastik üslubu bu mərhələdə hadisələrin gedişinə təsir göstərərk üç müxtəlif mətni iç-içə təqdim edir.

"Mars ordusunun məşhur casusları" [1, s.87] kimi təqdim olunan Helmholtz və Uiley xanım "üç yüz iyirmi kilometr yuxarıda gəzən bir uçan dairənin içindəki əsgər toplama heyətinin gözləri və qulaqları idilər" [1, s.87]. Onlar daha öncə Mars üçün dünyadan on dörd min insan toplamışdılar.

Bir sıra cəhətləri ilə fantastik əsər kimi görünən "Titanın sirenlərini" sırf bu tipdən bir roman hesab etmək də doğru deyil. "... Burada insanın və insanın dəyərinin qorunması və təsdiqi kimi sosioloji məna üstünlük təşkil edir, fantastika isə özlüyündə məqsəd deyil,

DOI:10.30546/gdu.3.2024

sosioloji dominantın tabeliyindədir" [3, s.65]. M.O.Mendelsonun dediyi kimi, sirenlərin fantastikası parodiyadır [3, s.190].

K.Vonnequt son iki insanın Marsdakı həyatını təsvir etmədən öncə ora dünyadan gedən insanların qarşılaşdıqları hadisələrə diqqət yetirmişdir. Dünyadan apararkən insanlara heç bir şiddət göstərilməsə də, onların Marsdakı taleyi gözəl görünmür: "Toplananların yüzdə doxsan doqquzunun Marsa çatar-çatmaz hafizələri silinirdi. Yaddaşları psixi sağlamlıq mütəxəssisləri tərəfindən silinir, kəllələrinin içinə marslı cərrahları tərəfindən radio dalğaları ilə idarə etmələrinə imkan verən radio antenaları yerləşdirilirdi" [1, s.88]. Yazıçının təsvirindən məlum olur ki, onlar Marsda fabriklərdə, inşaatlarda, orduda çalışırdılar. Çox az bir qism isə Marsa qəhrəmancasına xidmət etdikləri üçün onları dalğalar idarə etmir. Helmholtz və Uiley xanım da dünyaya casus kimi göndərilən həmin tipdən olan insanlardır.

Malaki Konstantın atasının otağında oturub gələcək şansı gözlədiyi zaman Helmholtz və Uiley xanım ona belə bir təkliflə müraciət edirlər: "Mars planetinin yalnız canlılara deyil, böyük, bacarıqlı, ordusu və sənayesi olan bir topluma ev sahibliyi etdiyini sizə bildirməyə gəldim. Bu toplum dünyadan toplanıb uçan dairələrlə Marsa daşınan insanlardan təşkil olundu. İndi sizə Mars ordusunda leytenant olmağı təklif etməyə hazırıq" [1, s.90]. Növbəti gün Malakinin vertolyotunun boş olması, onun heç yerdə görünməməsi təqiblərdən xilas yolunu Marsın təklifini qəbul etməkdə gördüyünü təsdiq edirdi.

Beatrice isə evinə qonaq gələn Helmholtz və Uiley xanımın onu aldadaraq bayıra çıxarması və uçan dairə ilə qaçırmaları ilə Marsa gəlmiş olur.

Romanın "Qırıq taraklar" bölümündən başlayaraq Malaki Konstantın Marsdakı həyatı təsvir edilir, burada artıq qəhrəman Dayı adı ilə oxuculara təqdim olunur: "Birinci marslı hücum piyada bölüyünün ikinci alayının üçüncü taburunun ikinci bölməsinin birinci dəstəsinin ikinci heyətindəki üçüncü adam da Dayı deyə çağırılırdı. Dayı qırx yaşındaydı" [1, s.96]. Dayının artıq səkkiz ildir ki, Marsda yaşaması, yaşlı zabit kimi ordudan kənarlaşması və Marsın qaydalarına uyğun hörmət əlaməti olaraq Dayı adlandırılması əsərdən məlum olur. Digər marslılar kimi Dayının da başına antenna yerləşdirmişlər: "Xəstəxanada Dayıya başının arxasında kəllə sümüyünün altında bir radio antennası olduğunu və yaxşı bir əsgərin əsla etməməsi lazımlı bir şey edərsə, hər dəfə onu ağrıdacağını belə açıqlamışdılar. Antenna, eyni zamanda, ona əmrlər verəcək və adımlarını izləmək üçün davul musiqisi çalacaqdır" [1, s.99]. Yazıçı başa antenna yerləşdirilməsi hadisəsini insanları manqurtlaşdırmağın bir forması kimi qələmə almış və güclü dövlətlərin müstəmləkə, yaxud zəif ölkələrdəki siyasətini hədəf almışdır. Dəhşətli ağrı verən bu proses insanların yaddaşlarını, xatirələrini, keçmişini silir, onları bir sıra insani hisslərdən məhrum edirdi.

Marsın psixi sağlamlıq həkimi kimi sözləri romanın "Məchul qəhrəmanın məktubu" bölməsinə epiqraf olaraq təqdim olunmuş Dr. Morris N.Kastle sözügedən prosesi belə şərh edir: "İnsan yaddaş mərkəzini, hardasa avtoklavdan yeni çıxmış neştər kimi steril hala gətirə bilirik. Yeni təcrübə zərrələri mərkəzdə həmən toplanmağa başlayır. Toplandıqca da bəzən əsgər zehniyyəti ilə uyğun olmayan örnəklərə çevrilə bilir. Təəssüf ki, bu təkrar çirklənmə problemi həll edilməz görünür" [1, s.104]. "Keçmişi xatırlamaq" [1, s.111] Marsa aparılmış insanlar üçün ən böyük problem hesab olunur.

Manqurtlaşma, insan beynindən keçmişin silinməsi və Marsdakı həyatla bağlı fikirlər öncə məchul olan, lakin sonundakı imzadan Dayının özü tərəfindən özünə yazıldığı bilinən məktubdan da aydın şəkildə bəlli olur. Dayı yaddaşı silinmədən öncə özünə məktub yazır. "Marsdakı hər kəs Dünyadan gəldi. Marsda durumlarının daha yaxşı olacağını düşündülər. Dünyanın nəyinin o qədər pis olduğunu kimsə xatırlamır indi" [1, s.124] deyən Dayı beyinə antenna taxılmasının ağırlığını ifadə edir: "Dayı, dostum... Əminliklə bildiyim odur ki, hər şeyi atennamdan gələn ağrı ilə savaşaraq öyrəndim mən, deyirdi məktubda. Nə zaman başımı

DOI:10.30546/gdu.3.2024

çevirib bir şeyə baxsam, ağrı başlar, mən yenə də başımı çevirməyə davam edirəm, çünki bilirəm ki, görməməm lazım bir şeyi görəcəm. Nə zaman bir söz soruşsam və ağrı başlasa, çox-çox yaxşı bir sual verdiyimi anlayıram" [1, s.122]. Yazıçıya görə, əgər suallar məntiqsizsə, cavablar da məntiqsiz olacaqdır [1, s.121]. Dayının məktubunda Marsın insanlara münasibəti, Dünya ilə başlayacaq müharibəyə hazırlığı, Dünya insanlarını gözləyən təhlükələr lokonik şəkildə, aydın formada öz əksini tapmışdır. Dünyaya ediləcək böyük hücumu intihar kimi qiymətləndirən Dayı düşüncələrində haqlı çıxır.

Mars insanların yaddaşını silməklə yanaşı, onları ən yaxın insanlarına da qarşı qoyur. "Sağ cibində xoşuna gəlməyən işlər görən insanların başına ağrı saplayan bir şey var" [1, s.122] yazan Dayı məktubda da ən yaxın dostunun Stoni Stevenson olduğunu yazmasına və onun hətta başına antenna taxılmadığını bilməsinə baxmayaraq, yaddaşı silindikdən sonra dostunu fərqinə varmadan öldürür. Bütün bunlar K.Vonnequtun insanlığa zidd cəmiyyətlərə qarşı böyük istehza və tənqidinin ifadəsi idi. Məktubdan Dayının Marsın yeganə şəhəri olan Fibidə Bee adlı arvadı və Krono adlı oğlu olduğu, eyni zamanda, Marsda hər şeyin nəzarətini əlində saxlayan, yüz on bir gündən bir görünərək Mars ordusunun həqiqi komandirləri ilə gizli iclaslar edən, hər zaman böyük bir köpəklə gəzən" [1, s.126] "əsas adamın" [1, s.126] varlığından da bəhs olunur.

Məktubun hər sətrinin önəmli bir məsələni təmsil etdiyini diqqətə alaraq ABŞ-ın yüksək sinif nümayəndəsi və romanın əvvəllərindən məlum olan, ABŞ da daxil olmaqla Dünyaya hücuma hazırlaşan, əslində isə öz məhfinə imza atan Marsın əsas adamının Uinston Naylz Rumfoord olduğu ortaya çıxır.

Dayının məktubu ona xilas yolunu da göstərir: "O kiçik ailəni bir yerə topladığın zaman bir kosmik gəmi oğurla və uçub uzaqlaş buralardan. Hüzurlu və gözəl bir yerə, həyatda qalmaq üçün ləbləbi udmaq məcburiyyətində qalmayacağın bir yerə get. Stonini də özünlə apar. Sonra yerləşib rahatlandıqdan sonra hər şeyi yaradan hər kimsə, onun bu işi nədən etdiyi ilə bağlı düşünərsiz" [1, s.127].

Mars, eyni zamanda, duyğuların olmadığı bir aləmdir. Bu cəhət Dayının Marsda doğulmuş oğlu Kronanın atasını görərkən heç bir həyacan keçirmədiyindən də bəlli olur: "Ona bir babanın önəmli bir şey olduğunu düşündürəcək heç bir məlumat verilməmişdir, həyatında heç bir canlı nümunə görməmişdi. Marsda bu sözün heç bir emosional mənası yox idi" [1, s.141].

Mars insanlığın ruhunun qəfəsə salındığı, hisslərinin məfh olunduğu bir məkan kimi təsvir edilmişdir:

Tut həyatı içəridə, çölə qaçmasın.
Bundan sonra nəfəs alıb vermək də yox...
Kosmosun ölümcül boşluğunda sürüklənirkən,
Diqqət et ki, danışmayasın.
Kədərlə ya da sevinclə doldusansa, əgər
Gözünün bir yaşı ilə bəlli et.
İçinə həbs etdiyin ruhuna və qəlbinə.
Belə dil ver, atmosfer ver.
Hər insan bir adadır, bu boş, cansız kosmosda.
Bəli, hər insan bir adadır: qala ada, qala yuva [1, s.148].

Roman qəhrəmanlarının növbəti kosmik səfəri Merkuri planetinə olur və "Hollivudda bir gecə klubunda" bölməsi ilə yazıçı sözügedən planetdəki hadisələri təsvir edir. Yazıçı Merkuri planetində yeganə canlıların harmonium olduğunu göstərmişdir.

Merkuru planeti pisliklərin, savaşların olmadığı, insan ruhunun rahatlıq tapdığı bir məkan kimi təsvir edilmişdir. Bu baxımdan, romanın "Tapmacanın həlli" bölümündə Sara

DOI:10.30546/gdu.3.2024

Horn Canbinin “Merkurinin mağaralarında Dayı ilə Boaz” adlı kitabından gətirilmiş epiqrafda deyilir: “Kimsəyə zərərin dəymədən yaxşılıq edəcəyim bir yer tapdım” [1, s.189]. Marsda olduğu zaman pis əməlləri ilə seçilən Boazın söylədiyi bu sözlərin davamından məlum olur ki, Merkuridəki canlılar yaxşılıq etmək, yaxşılığı anlamaq və sevmək özəlliklərini qoruya və ya bərpa edə bilirlər. Bu məkan yazıçının, sanki insanların mənən təmizlənməsi üçün rəmzləşdirdiyi bir yer kimi təsvir edilmişdir.

Dayının dünyaya dönüşü, kosmik gəmisinin “dünya qardaşlığının Amerika Birləşmiş Ştatlarına” aid əyalətinə enməsi, burada Uinston Naylz Rumfoordun yeni dinin insanlar arasında təbliğ etdiyi bir dönəmdə müqəddəs kimi qarşılanması da əsərin maraqlı cəhətlərindəndir. “Kosmos səyyahının böyük varış günü” [1, s.222] insanlara Uinston Naylz Rumfoordun tapşırığı ilə “mən bir sıra talesiz təsadüfün qurbanı idim” [1, s.220] deyən Dayı dünyada, insanlar arasında olmaqdan böyük sevinc hiss edir. İnsanların tapındığı Dayı, əslində, keçmişini unutmuş, əsl adı Malaki Konstant olduğunu belə unudan qəhrəman cəmiyyətdəki mahiyyət və forma arasındakı ziddiyyəti çox gözəl şəkildə ifadə edir: “Çıxdığı ağacın təpəsindən “Malaki Konstantdan nifrət edirik” dedi Rumfoord, “çünki o fövqalədə şansının fövqalədə meyvələrini heç çəkinmədən, sanki şans Tanrıdan gəlirmiş kimi qəbul etdi. Halbuki biz Heç Sarsılmaz Tanrı Kilsəsinin mənsublarına görə, hər insan üçün buna – şansın yaxşısının da, pisinin də Tanrıdan gəldiyinə inanmaqdan daha qorxunc, daha təhlükəli, daha küfür bir şey yoxdur” [1, s.243]. Əvvəlcə Malaki Konstant, sonra Dayı, sonra kosmos səyyahı, sonra yenidən Malaki Konstant olan adam həyatda tək bir yaxşılıq etmədiyi üçün Dünyadan sürgün olunur: “... Saturnun ılıq və bərəkətli peyki Titana gedəcəksən. Orada güvənli və rahat həyat yaşayacaqsan, lakin ana yurdun Dünyadan ayrı, sürgündə olacaqsan” [1, s.246].

Titan Saturn planetinin doqquz peykindən ən böyüyü kimi təsvir olunur. “Günəş sistemində atmosferi olan tək peyk” [1, s.255] olan Titanda Uinston, Naylz və Rumfoord adlı üç dənizin olduğunun göstərilməsi ABŞ-ın yüksək sinif qəhrəmanının burada da böyük mövqeyindən xəbər verməkdədir.

Titanda düzbucaqlı bir hovuzun iki metrə yarım dərinliyində suyun içində üç siren, “uzun zaman öncə qadın düşkünü olan Malaki Konstanta təqdim edilmiş üç gözəl dişi insan” [1, s.267] var idi.

Rumfoord və iti daima Titanda maddiləşir. Malaki Konstant, Beatrice Rumfoord və Krona gəlmədən əvvəl Titanda yalnız Solo adında, miladdan çox əvvəllər mövcud olan Tralfamador ana planetindən gəlmiş, dünyanı və kosmosun bütün istəqamətlərini ən kiçik nöqtələrinə qədər müşahidə edə bilən üç gözə sahib, “universal var olma arzusu ilə” [1, s.260] çalışan bir makina idi. “Hər dünyalının bütün zamanlarda etdiyi hər şey yüz əlli min işıq ili keçmişdəki bir planetdə yaşayan yaradılanların yönləndirilməsiylə edilmişdir. Bu planetin adı Tralfamadordur” [1, s.284] deyən yazıçı Solonun gözü ilə dünyaya baxmış, orada baş verən tragikomediyaları təsvir etməyə çalışmışdır: “Qoca göz yaxşı bir teatrı seyr etməkdən doymurdu. Dünyalılar tərəfindən səhnəyə qoyulan tamaşaların komediya, tragediya, fars, həcv, atletizm olduğunun qoca göz üçün heç bir fərqi yox idi” [1, s.265].

“Məni Günəş sisteminin və Dünyanın Nevportlu bir cənabı kimi xatırlayın” [1, s.286] deyib ölümə gedən Uinston Naylz Rumfoordun yaxın dostu Solo, eyni zamanda, Krononun hər zaman mühafizə etdiyi şans daşının böyük parçası idi. Solo, eləcə də, K.Vonnequtun dünyaya vermək istədiyi mesajın daşıyıcı kimi simvollaşdırılmışdır: “Hardasa, yarım milyon Dünya ilindən bəri daşıdığım mesajın, daha on səkkiz milyon il daşıyacağım gözlənilən mesajın nə olduğunu bilmək istəyirsənmi? Bir nöqtə, tək bir nöqtə. Tralfamadorcada bir nöqtənin mənası budur: “Salamlar” [1, s.288]. Solonun parçalanaraq ətrafa dağılan hissələrini

DOI:10.30546/gdu.3.2024

ondan bir parça şans daşına sahib olduğu üçün daha dərindən hiss edən Krona “tez və gec kainatın sehirli güclərinin hər şeyi bir araya gətirəcəyinə inanır” [1, s.289].

Roman “Epiloq: Stoni ilə qovuşma” bölməsi ilə bitir. Əsərin sonlarına doğru Beatriçe “Günəş sistemində həyatın gerçək məqsədi” adlı kitabını yazır və həyatı sona çatır. Krona Titan maviquşlarına qoşularaq sərbəst bir aləmə çəkilir, Malaki Konstant isə Solonun parçalarını birləşdirərək ona həyat verir və əsərin son səhifələri onların dialoqları ilə davam edir. Malaki Konstantın Titanda söylədiyi son sözləri K.Vonnequtun romandakı əsas fikirini ifadə edir: “Yalnız bir Dünya ili öncə” dedi Konstant. “İnsan həyatının, ipləri kimin əlində olursa, olsun, bir məqsədinin də ətrafda sevilə biləcək kim varsa, sevmək olduğunu anlamamız bu qədər davam etdi” [1, s.302].

Malaki Konstantın Dünyaya dönmək kimi son arzusunu Solo reallaşdırmaq istədiyində Malakinin dediyi sözlər yenidən ABŞ-ın siyasi dünyasını ironiya hədəfinə alır. ABŞ-ın İndiana ştatının İndianapolis şəhərinə getmək arzusunu qəhrəman belə ifadə edir: “İndiananın İndianapolisi. Amerika Birləşmiş Dövlətində ağ bir adamın bir qızıldərilini öldürdüyü üçün asılaraq edam edildiyi ilk yer. Ağ bir adamı bir qızıldərilini öldürdüyü üçün asaraq edam edəcək insanlar...” deyə davam etdi, “tamamilə mənə görə insanlardır” [1, s.303]. Əsərin sonu Dünyaya endikdən sonra ölən Malaki Konstantın axirətdə Stoni ilə görüşü və onun Malakiyə dediyi son sözlər ilə bitir. Romanın ilk bölümünün epiqrafı kimi verilmiş bu sözlər ilə K.Vonnequt məkanından, zamanından, əməllərindən asılı olmayaraq insanlara yardım edən Tanrını ön plana çəkir: “Yəqin ki, Tanrı səni sevir” [1, s.308].

Göründüyü kimi, K.Vonnequt “Titanın sirenləri” əsərində Mars, Merkuri və Titanı, orada yer insanlarının taleyini təsvir etməklə, əslində, dünya və bir sıra dünya ölkələrinə münasibətini, humanizmi ifadə etmişdir. Kurt Vonnequt ABŞ ədəbiyyatının ən böyük yazıçılarından biri idi. Onun yaradıcılığı yeni bədii təsvir vasitələrinin intensiv axtarışı ilə əlamətdardır. O, ədəbi inkişafın əsas yolundan kənarda qalmır və özünəməxsus şəkildə onun ümumi cərəyanlarını, müasir realizmin səciyyəvi xüsusiyyətlərini və formalarının dəyişmə qanunauyğunluqlarını əks etdirir.

“Titan sirenləri” romanı bütövlükdə insanlığa dəyər vermək, onun qorunub saxlanmasına məsuliyyət daşımaq zərurətindən bəhs edir, çünki yalnız həmin cəhət insan varlığına məna verir. Bu, əsərin humanist yönümünü müəyyən edir.

### *Ədəbiyyat*

1. Vonnegut Kurt. The Sirens of Titan. New York, Publisher: Delacorte Press, 1959.
2. Анастасьев Н. Есть ли будущее у литературы? Вопросы литературы, 1974, № 4.
3. Димитрук В.В. Тюрчество К.Воннегута: социально-критические тенденции, жанр, поэтика. Диссертация на соискание ученой степени кандидата филологических наук, Киев, 1984.
4. Мендельсон М. Роман США сегодня. Москва, Сов. писатель, 1977.
5. Сооль Р.В. Сатирические тенденции в Американском романе 1960—70-х годов. Диссер. на соискание ученой степени кандидата филологических наук. Тарту, 1982.

DOI:10.30546/gdu.3.2024

## ПЛАНЕТЫ В «СИРЕНАХ ТИТАНА» КУРТА ВОННЕГУТА

***Ахмедова Латифа Карам кызы***

***Резюме***

После Второй мировой войны в американской литературе сформировались новые формы и методы развития, традиционные темы и содержание получили новое выражение. К.Воннегут, один из писателей литературы США XX века, отличавшийся уникальными творческими принципами, пытался сформировать новые направления в художественном творчестве. Все произведения К.Воннегута характеризуются гуманным отношением к людям. Важные и глобальные темы, такие как политическая и общественная жизнь США, отношение к миру, Вторая мировая война и ее последствия, могут быть выражены в романах К.Воннегута простым языком. Роман К.Воннегута “Сирены Титана” также занимает важное место в творческом наследии писателя, выделяется своеобразием формы и содержания. Одна из важных тем романа — другие планеты, жизнь и судьба земных героев на этих планетах. Герои Малачи Констант, Уинстон Найлс Румфорд и Беатрис путешествуют на Марс и Меркурий. Неверно считать роман “Сирены Титана” чисто фантастическим романом, который во многих отношениях выглядит фантастическим произведением. Помимо стирания памяти людей, Марс также настраивает их против самых близких людей. Планету Меркурий описывают как место, где нет зла и войн, где душа человека обретает покой.

## THE PLANETS in KURT VONNEGUT'S “SIRENS OF TITAN”

***Ahmadova Latifa Karam***

***Summary***

After World War II, new forms and methods of development emerged in American literature, and traditional themes and content received new expression. K. Vonnegut, one of the writers of American literature of the 20th century, distinguished by unique creative principles, tried to form new directions in artistic creativity. All of K. Vonnegut's works are characterized by a humane attitude towards people. Important and global themes, such as political and social life in the USA, attitude towards the world, World War II and its consequences, can be expressed in K. Vonnegut's novels in simple language. K. Vonnegut's novel “The Sirens of Titan” also occupies an important place in the writer's creative legacy, and stands out for its original form and content. One of the important themes of the novel is other planets, the life and fate of earthly heroes on these planets. Heroes of novel Malachi Constant, Winston Niles Rumfoord and Beatrice travel to Mars and Mercury. It is wrong to consider the novel “The Sirens of Titan” as a purely fantastic novel, which in many ways looks like a fantastic work. In addition to erasing people's memories, Mars also turns them against their closest people. The planet Mercury is described as a place where there is no evil and wars, where the human soul finds peace.

***Rəyçi: f.e.d. Bəsirə Höccət qızı Əzizəliyeva***

***ADPU-nun Ağcabədi filialının “Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrasının 09 sentyabr 2024-cü il tarixli iclasının 1№- li protokolundan çıxarış***